# Şagirdlərdə pozitiv "Mən obrazı"nın inkişaf etdirilməsinə dair

**Gülnar Rasim qızı Quliyeva**
*Bakı Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə dissertantı*
**E-mail:** gulnar9129@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. E.A. Piriyeva,
psixol.ü.f.d. M.E. Eyyubova

**Açar sözlər:** şagird, yeniyetmə, "Mən obraz", özünüqiymətləndirmə, insan, inkişaf, şəxsiyyət

**Ключевые слова:** ученик, подросток, «Я образ", самооценка, человек, развитие, личность

**Key words:** students, teenagers, "My image", self-assessment, human, development, personality

Yeniyetməlik dövrü digər inkişaf dövrləri kimi araşdırılması vacib olan dövrlərdən biridir. Bu dövrün ən əhəmiyyətli əlaməti anatomik və fizioloji inkişafın təsiri ilə dəyişən psixikada baş verən struktur dəyişiklikləridir. Nəticədə fiziki inkişafındakı dəyişiklikləri xarici görkəminin daha çox böyüklərə oxşadığını görən şagird ətrafdakıların onlara yaşlı adam kimi yanaşmalarını istəyir. Uşaqlıqdan yaşlılığa doğru keçid baş verir. Bu dövr qızlarda və oğlanlarda fərqli zamanlarda başlaya və qurtara bilər. Bu yaş dövründə yeniyetmələrin aparıcı fəaliyyəti əsasən həmyaşıdları ilə intim-şəxsi ünsiyyət və digər aparıcı fəaliyyət növləri: əmək, tədris, ictimai-təşkilati işlər, şəxsi ünsiyyət, idman və bədii fəaliyyət olur.

Kiçik məktəblilərdən fərqli olaraq yeniyetmə şagirdlərdə öz şəxsi həyatına, şəxsiyyətinin xüsusiyyətlərinə maraq yarandıqda özünüqiymətləndirmə tələbatı, özünü başqaları ilə müqayisə etmə meyli yaranır. Beləliklə, yeniyetmə özü üçün öz "Mən" ini kəşf etməyə başlayır. "Mən obrazı"nın formalaşmağa başlaması və sonrakı inkişafı yeniyetmənin bütün psixi həyatına, onun təlim fəaliyyətinin xarakterinə, ətrafdakılara münasibətinə öz təsirini göstərməyə başlayır.

"Mən obrazı" bir insanı başqalarından fərqləndirən duyğuların, münasibətlərin və davranışların mütəşəkkil bütövlüyünü təşkil edir. Mən anlayışı insanın özünü tanıması və qavraması yolu ilə müəyyən edilir. İnsanın özünü necə gördüyünü və necə dəyər verdiyini izah edir.

"Mən obrazı" insan şəxsiyyətinin təməlində olan və fərd üçün çox vacib olan bir çox hisslərin, duyğuların və düşüncələrin məcmusu kimi başa düşülür. Mən anlayışı fərdin qavradığı tərzdə özü üçün nələr etmək istədiyini və nə üçün etmək istədiyini ifadə edir. İnsanlar arasındakı oxşarlıqları və fərqləri ortaya qoyur.

"Mən konsepsiyası" anlayışı şəxsiyyətin daxili subyektiv tərəfi ilə onun tamlığını və vahidliyini əks etdirir, daha doğrusu fərdin özü haqqında bildikləri, öz-özünü necə görür hiss və təsəvvür edir. Fərdin özü haqqında təəssüratları obyektiv yaxud subyektiv fikrə əsaslanmasından, həqiqi, yaxud yanlış olmasından asılı olmayaraq şəxsin özü üçün inandırıcı olur. "Mən obrazı"nın formalaşmasına aparan konkret üsulları çox müxtəlif ola bilər.

"Mən obrazı" yeniyetməlik dövründə olduqca önəmli, dinamik və ömür boyu davam edən çox vacib bir prosesdir. Yeniyetməlik dövrünün başlanması ilə şəxslərdə mənəvi, fiziki, emosional və sosial dəyişikliklər başlayır. Bu dövrdə "Mən obrazı"nın formalaşması yeniyetmənin bir növ özünü dərk etməsi ilə başlayır. O artıq öz davranışını, mənəvi keyfiyyətlərini, xarakter və qabiliyyətlərini analiz etməyə başlayır.

"Mən konsepsiya"sının bütün inkişaf nəzəriyyələri bu və ya digər yaş mərhələsinə aid

olan göstəricilər üzərində xüsusi dayanır. Burada ailə münasibətlərinin rolu və əhəmiyyətli digərlərinin rolu xüsusilə qeyd olunmalıdır. "Əhəmiyyətli digərləri" termini ilə onun həyatına birbaşa təsir etmə qabiliyyətinə malik olduqları uşaq üçün mühüm əhəmiyyət kəsb edən insanlar nəzərdə tutulur. Erkən uşaqlıq illərində uşağın ətrafında olan əhəmiyyətli digərləri onun valideynləri olur. İllər keçdikcə onların sırasına müəllimlər və həmyaşıdlar da qoşulurlar. "Mən obrazı"nın axtarışlarında insan əhəmiyyətli digərlərinin seçir və yaratdığı öz "Mən" təsvirini yüksək qiymətləndirir. Əhəmiyyətli digərlərinin tərifi uşaqda müsbət "Mən" obrazı yaratdığı halda ardıcıl danlaqlar uşaqda mənfi özünüqiymətləndirməyə gətirib çıxara bilər. Hər bir halda yaradılan obraz "Mən konsepsiya"sının formalaşması üçün zəruri olan əsas psixoloji təcrübə mənbəyinə çevrilir.

Yeniyetməlik dövrünün başlanğıc dövrlərində "Mən obrazı"nın əsasını başqa adamların fikirləri, mülahizələri təşkil edir, amma müəyyən müddətdən sonra yeniyetmə artıq özünün şəxsiyyətini müstəqil təhlil etməyə, qiymətləndirməyə başlayır.

Yeniyetməlik dövrü gənclərin özlərini daha yaxşı müəyyənləşdirdikləri dövrdür. Əgər bu dövrdə yeniyetmə özünü dəyərli hiss edirsə, bu vəziyyət onun öz "Mən"inə yüksək hörməti olduğunu göstərir. Amma tam tərsi, müəyyən problemləri olan, depressiya, intihara bənzər bir çox psixoloji problemlər yaşayırsa bu vəziyyət onda aşağı özünüqiymətləndirməni göstərir. Yüksək özünüqiymətləndirməyə sahib olan şəxslər cəmiyyətdə psixoloji cəhətdən daha sağlam düşüncəli biri kimi tanınırlar.

Aparılan araşdırmalara görə ana və ata tərəfindən göstərilən dəstək, yeniyetmənin "Mən obrazı"nın inkişaf etdirilməsinə təsir göstərir. Ailədə uşaq ilə valideynlər arasında formalaşan qarşılıqlı münasibətlər tipi "Mən konsepsiya"sının inkişafının əsas amillərindən biridir. "Mən konsepsiya"sının Yeniyetməlik dövründə ana atayla bağlılığın, qurulan tərbiyə üslubunun, yeniyetməlikdən gəncliyə keçərkən uşağa təqdim etdiyi mühit çox vacibdir. Uşağın valideynləri tərəfindən sevildiyini hiss etməsi çox önəmlidir çünki, valideynləri tərəfindən yetərincə sevilən, zaman ayrılan, problemini həll edən, dost seçiminə müdaxilə edilməyən, istəkləri qəbul edilmədiyi vaxtlarda səbəbi izah edilən, duyğu və düşüncələrinə hörmət edilən, ailələri ilə hər mövzuda danışmaqdan çəkinməyən, qız oğlan ayrı seçkiliyi olmayan, ata-ananın fikrini aydın şəkildə ifadə edə bildiyi ailələrə sahib olan yeniyetmələrin digərlərinə nisbətən "Mən obrazı"ı daha yüksək səviyyədə inkişaf edir. Eyni zamanda ailənin təhsil səviyyəsinin, gəlir səviyyəsinin yeniyetmənin özünüqiymətləndirməsinə əhəmiyyətli dərəcədə təsir göstərdiyi halda, əksinə ata-ana tərəfindən rədd edilən yeniyetmələrdə depressiya və aşağı özünüqiymətləndirmə özünü göstərir.

Aparılan digər araşdırmalara görə yeniyetmələrin dostları ilə münasibətləri daha sağlamdırsa, problemlərini həll etmək bacarığına malikdirsə, məktəbdə müvəffəqiyyətli bir şagirddirsə onun "Mən obrazı"ı daha yüksək səviyyədə inkişaf edir.

Bu dövrdə yeniyetmənin "Mən obrazı"na təsir göstərən ən vacib amillər onun xarici görünüşü və dostlarıdır. Xarici görünüşünün yeniyetmənin fiziki olaraq özündən məmnun olub olmamasına təsir etməkdən əlavə, başqaları tərəfindən deyilən müsbət və mənfi fikirlərin də "Mən obrazı"nın inkişafına öz təsirini göstərir. Ümumilikdə öz xarici görünüşünü bəyənən yeniyetmələrdə pozitiv "Mən obraz"ı inkişaf edir. Amma aşağı səviyyədə "Mən obraz"ı olan yeniyetmələr başqalarının onların xarici görünüşləri haqqında mənfi fikirdə olduğunu düşünürlər.

**Məqalənin aktuallığı.** Müasir dövrdə təhsil sisteminin qarşısında duran mühüm vəzifələrdən biri də dövrün tələblərinə cavab verən yüksək intellektə, mədəni davranışa malik olan, baş verən dəyişikliklərə çevik və fəal şəkildə münasibət bildirməyi bacaran şəxsiyyətlər for-

malaşdırmaqdan ibarətdir. Məlumdur ki, şəxsiyyətin nüvəsini onun "Mən" obrazı", özünə və başqalarına münasibəti təşkil edir.

"Mən obrazı"ın adekvatlılığı şagirdin təlim fəaliyyətinə müsbət təsir göstərir, onun öz imkanlarını daha geniş şəkildə səfərbər etməyə zəmin yaradır. Qeyd etməliyik ki, "Mən" obrazı"ın aşağı olması yalnız şəxsiyyətin özünə münasibətinin neqativliyinə gətirib çıxarmır, həm də onun təlim fəaliyyətinin qeyri-optimal təşkilinə və təlim qiymətlərinin düşməsinə səbəb olur. Məqalənin də aktuallığı məhz onun bu mövzuya həsr olunmasından irəli gəlir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə şagirdlərdə pozitiv "Mən obrazı"nın inkişaf etdirilməsi kimi vacib bir məsələyə toxunulmaqla, onun formalaşmasına aparan konkret üsulların mövcudluğu xüsusi olaraq qeyd edilir. Eyni zamanda, yeniyetməlik dövrünün başlanması ilə şəxslərdə mənəvi, fiziki, emosional və sosial dəyişikliklərin olduğu diqqətə çatdırılır, bu istiqamətdə aparılan araşdırmaların nəticələri konkret nümunələrlə sadalanır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən praktik psixoloqlar, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. A. Mustafayev, M. Vəliyev. İnkişaf və yaş psixologiyası: Dərs vəsaiti. Bakı, 2013.
2. Önder A., Gülay H. İlköğretim Sınıf Öğrencilerinin Psikolojik Sağlamlığının Çeşitli Değişkenler Açısından İncelenmesi. Dokuz Eylül Üniversite Buca Eğitim Fakültesi Dergisi, 2008.
3. S.İ. Seyidov, M.Ə. Həmzəyev. Psixologiya. Bakı, 2007.
4. Yörükoğlu A. Değişen Toplumda Aile ve Çocuk. İstanbul: Özgür Yayın Dağıtım. 1989.

**Г.Р. Кулиева**

## О развитии у студентов положительного «Я образ»а

## Резюме

В статье были изучены особенности подросткового возраста и присущие ему возрастные характеристики. В данной статье, автор обобщает сведения исследований по данной тематике, а также в качестве объекта своего исследования рассматривает факторы влияющие на формирование "Я образ"а у подростков.

**G.R. Guliyeva**

## On the development of a positive "Self-image" of teenagers

## Summary

The article contains information on the main features and qualities of adolescence. In this article, author generalized information of existing studies on adolescence, at the same time as an object of the study was selected factors influencing "Self-image" of teenagers.

**Redaksiyaya daxil olub:** 29.09.2020